# Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar keçirilən yaradıcılıq müsabiqəsinə yekun vuruldu

İqtisadiyyat Nazirliyi xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar KİV nümayəndələri arasında "Heydər Əliyev və sahibkarlığın inkişafı" mövzusunda keçirdiyi yaradıcılıq müsabiqəsinə yekun vurdu. Bununla əlaqədar olaraq mayın 10-da Bakı Biznes Mərkəzində tədbir keçirildi.

Əvvəlcə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilildi. Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov müasir Azərbaycanın memarı Heydər Əliyevin ölkəmizin inkişafı üçün gördüyü mühüm işlərdən geniş bəhs etdi, bu dahi şəxsiyyətin dövlətçiliyin möhkəmləndirilməsində və iqtisadiyyatın inkişafında əvəzsiz xidmətlərindən danışdı. Qeyd olundu ki, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ulu öndər ölkəni xaos və böhrandan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, ölkədə siyasi sabitlik yaratdı.

Sahib Məmmədov bildirdi ki, ulu öndər Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörənliyi nəticəsində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də genişmiqyaslı islahatlar həyata keçirilib. Ümummilli liderin davamlı və dayanıqlı, sosialyönümlü və innovativ iqtisadiyyatın formalaşması istiqamətində həyata keçirdiyi strategiya, o cümlədən neft, aqrar islahatlar, özəlləşdirmə, regionların tarazlı inkişafı siyasəti, sahibkarlığın inkişafı, infrastrukturun, yeni istehsal sahələrinin yaradılması, nüfuzlu beynəlxalq maliyyə institutları ilə əlaqələrin qurulması kimi kompleks tədbirlər sonrakı illərdə ölkə iqtisadiyyatının dinamik inkişafı üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyevin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və uğurla davam etdirilir. Dünyada layiqli yerini tutmuş və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmiş Azərbaycan daha işıqlı gələcəyə doğru inamla irəliləyir.

Sonra müsabiqənin nəticələri açıqlandı. Qeyd edək ki, müsabiqəyə 48 KİV tərəfindən 69 material təqdim edilmişdi. Süjet və məqalələr İqtisadiyyat Nazirliyində yaradılmış Müsabiqə Komissiyası tərəfindən qiymətləndirilib və qaliblər müəyyən edilib. Tədbirdə qaliblər elan olundu, onlara diplomlar və mükafatlar təqdim edildi. "Azərbaycan" qəzetinin əməkdaşı Rəşad Cəfərlinin "İqtisadi inkişafın banisi" adlı məqaləsi münsiflər heyətinin qərarı ilə birinci yerə layiq görüldü.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmiş İqtisadiyyat Nazirliyinin əməkdaşlarına YAP üzvlüyünün vəsiqələri təqdim olundu.

***"Azərbaycan"***